“Hər kim səmimi qəlblə Allahdan şəhidlik istəsə, yatağında ölsə belə, Allah onu şəhidlərin məqamına çatdırar.”

Səhl bin Huneyfdən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: “Hər kim səmimi qəlblə Allahdan şəhidlik istəsə, yatağında ölsə belə, Allah onu şəhidlərin məqamına çatdırar.”
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim Allah yolunda şəhadət və ölümü istəyərsə və bu niyyətində izzət və cəlal sahibi olan Allah üçün sadiq və ixlaslı olarsa, cihadda deyil, hətta yatağında ölsə belə, Allah ona, səmimi niyyətinə görə şəhidlərin dərəcələrini nəsib edər.

http://sunnah.global/hadeeth/az/show/3157